Görüşdə bildirilib ki, 8-9 noyabr tarixlərində Malayziya Təhsil Nazirliyi Bakı Təhsil Mərkəzi ilə birgə Malayziya Təhsil Yarmarkası keçirəcək. Yarmarkanın məqsədi bütün maraq göstərən şəxsləri bir yerdə və eyni vaxtda toplayaraq Malayziya universitetlərində təhsil almaq imkanları barədə lazımi məlumatla təmin etməkdir. Eyni zamanda məlum olub ki, yarmarkada Malayziyanın 12 universiteti iştirak edəcək. Universitetin nümayəndələri öz təhsil proqramları və fəaliyyətləri haqqında məlumat verəcək, həmçinin yarmarka iştirakçılarını material və bukletlərlə təchiz edəcəklər.

Misir Mərdanov qonaqları salamlayaraq təhsil sərgisinin hazırlanmasını müsbət dəyərləndirib. Nazir bu əhəmiyyətli işin iki ölkə arasında təhsil əlaqələrinin inkişafına təkan verəcəyini bildirib.

Görüşdə qonaqlar öz ölkələri barədə məlumat verərək Malayziyada dünyanın bir cox ölkəsindən 70 mindən çox tələbənin təhsil aldığını vurğulayıblar. Qonaqlar Azərbaycanla təhsil sahəsində əməkdaşlığa, Malayziya universitetlərində azərbaycanlı tələbələrin də təhsil almalarına maraq göstərdiklərini bildiriblər.

Sonda Azərbaycanla Malayziya arasında gələcəkdə təhsil sahəsində daha sıx əlaqələrin qurulması qərara alınıb.